## PARAFRAZ: tədrisdə onun tətbiqi

Parafraz – başqasının nitqini mənaca təhrif etmədən öz sözlərilə ifadə etməkdir. Mənbələrə istinad etmək texnikasıdır və toplanılan məlumatları olduğu kimi köçürməmək üçün istifadə edilir. Mətndə sitatdan istifadə zamanı istinad mənbəyi göstərildiyi kimi, parafraz edilmiş fikrilərin də mənbələrinin qeyd edilməsi vacibdir, əks halda, plagiat hesab olunar. Çünki cümləni öz sözlərinlə ifadə etmək orijinal fikir irəli sürmək deyildir. Nəzərə almaq lazımdır ki, cümlənin ideyası deyil, forması yenidir.

Cümlənin parafrazı ilə yanaşı, lazım gəldikdə abzas və ya mətn də parafraz edilir. Parafraz nitqi və ya mətni sitatlarla yükləməyin qarşısını alır.

Əgər cümlələr mənbənin eyni hissəsindən parafraz edilirsə, mətndə abzasın sonunda parafraz olunan mənbədən bir cümləni sitat gətirmək məqsəduyğundur.

### Parafraz etmək üsulları

- ✓ Sinonimlərdən istifadə: Parafraz etməyin ən sadə yolu cümlədəki sözləri onların qarşılığı ilə əvəz etməkdir.
- ✓ Cümlə üzvlərinin yerini dəyişmək və onları bir-biri ilə əvəz etmək: Cümlənin mənasını gözləməklə mübətda və xəbərin yerini dəyişmək olar, bu zaman digər cümlə üzvlərinin də yeri dəyişiləcəkdir ( bu üsul bütün cümlələr üçün uyğun olmaya bilər).
- ✓ Cümlənin quruluşunu dəyişmək: Başqa bir mübtədadan istifadə etmək və ya mürəkkəb cümlələrdə sadə cümlələrin yerini dəyişmək yeni cümlənin yaradılmasında səmərəlidir.
- ✓ Nitq hissələrinin ixtisarı və əlavə edilməsi: Cümləni orijinal etmək üçün səmərəli üsullardan biri – bir neçə yeni sözün/ifadənin daxil edilməsi və ya fikrin çatdırılmasında əhəmiyyətli olmayan sözlərin/ifadələrin ixtisarıdır.

Parafraz olunmuş cümləni orijinalından daha çox fərqli etmək üçün bir neçə üsuldan eyni zamanda istifadə daha səmərəlidir. Aşağıdakı cədvəldə cümlələrin necə parafraz ediləcəyinə dair nümunələr verilmişdir.

**Cümlələrin parafrazına dair nümunələr**

| **Parafraz üsulu** | **Sitat** | **Sitatın parafrazı** |
|---|---|---|
| Sinonimlərdən istifadə | *İdeya söz meşəsində az rast gəlinən ovdur.* (Viktor Hüqo) | *Yeni fikir söz cəngəliyində ələ düşməz qənimətdir.* |
| Nitq hissələrinin əlavə edilməsi və cümlənin quruluşunun dəyişdirilməsi | *Həyatımız səyahət, ideya isə bələdçimizdir. (Viktor Hüqo)* | *Ağlımıza gələn parlaq fikirlərin bayraqdarlığı ilə ömür adlı yolçuluqdayıq.* |
| Sinonimlərdən istifadə və nitq hissələrinin əlavə edilməsi | *İdeyaları yalnız ideyalar zərərsizləşdirə bilər.* (Onore de Balzak) | *Təsirli fikirlərin qarşısını yalnız yeni tutarlı düşüncələrlə almaq olar.* |

**Tədris zamanı parafrazdan istifadənin məqsədi:**

1. Mətni oxuyub anladığını nümayiş etdirmək üçün məlumatları, fikirləri öz sözü ilə ifadə etmək;
2. Yazı işlərində verilmiş fikirlərin parafraz edilərək mətnin tezisinin yazılması;
3. Mətnin nəticəsinin yazılmasında onun tezisinin və arqumentlərinin parafraz edilməsi;
4. İfadənin yazılması;
5. Mətnin qısa məzmununun yazılması;
6. Nəzm və ya dialoji nitqin nəsrə çevrilməsi;
7. Bədii mətndə təhkiyənin dəyişdirilməsi;
8. Mətnin xülasəsinin yazılması və s..

**Essenin yazılmasında parafraz**

Arqumentativ esselərin yazılmasında mənbələrlə işin təşkili önəmli olduğu üçün parafraz bacarığı da tələb olunur. Bu səmərəli üsuldan mənbələrdən bəhrələnmək məqsədilə istifadə edlilir, lakin bu məqamda bir əsas şərti diqqətdə saxlamaq vacibdir: mənbələrə istinad qeyd edilməlidir.

Arqumentativ esse yazarkən, istinad etməklə də olsa, mənbələrdən köçürmək yolverilməzdir! Yazı işi aparılarkən şagirdlərə aşağıdakı tövsiyə və izahlar vermək məqsədəuyğundur:

• Mənbə qeyd edilməklə, birbaşa sitatlar, bilvasitə sitatlar, parafrazlar və öz şərhlərinizdən istifadə edə bilərsiniz.

• Parafrazın əhəmiyyəti ondadır ki, istifadə etdiyiniz mənbələri öz sözlərinizlə ifadə edə biləcək qədər düzgün anladığınızı nümayiş etdirirsiniz.

• Bu, həmçinin mətni sitatlarla yükləmədən mənbələrdən istifadə üçün alternativ imkan qazandırır.

**Mətni necə parafraz etməli?**

Parafraz etmək bacarığını inkişaf etdirmək üçün səmərəli strategiyalar vardır. Lakin ən vacib şərt – mətni parafraz etməkdən öncə onu tam anladığınıza əmin olmaqdır. Bunun üçün aşağıda verilənləri ardıcıl olaraq tətbiq etməyiniz faydalı olacaqdır:

1. Mətni öncə diqqətlə oxuyun;

2. Mətndə anlamadığınız sözlərin mənasını lüğətlərdən araşdırın;

3. Sonra mətni sürətlə bir daha oxuyun və əmin olun ki, tamamilə anlamısınız. Ayrıca olaraq, birinci cümləyə (adətən, bu, tematik cümlə olur) və açar sözlərə diqqət edin;

4. Mətni örtün və yadınızda qalan məzmunu şifahi xülasələşdirin.

Mürəkkəb akademik nitqdə düşünmək vacib deyildir – öz sözlərinizdən istifadə edin;

5. Şifahi şəkildə - fikrinizdə formalaşdırdığınız xülasəni vərəqə köçürün;

6. Mənbə mətni bir daha nəzərdən keçirin və əmin olun ki, onun əsas məqamlarını nəzərə almısınız. Əsas açar məqamları olduğu kimi yazmaq, mətndən seçilmiş ifadələri və ya parafraz olunmayan xüsusi anlayışları eynilə istifadə etmək lazımdırsa, onları dırnaqda yazın;

7. Araşdırdığınız mənbələri və onların müəllifləri haqqında lazım olan bütün məlumatları qeydə alın, yazınızda istifadə edin.

**Parafraz bacarığının qiymətləndirmə meyarları**

Parafraz bacarığı aşağıdakı keyfiyyətlərə əsasən ölçülür:

Əhatəlilik: Mənbənin bütün əsas detalları parafrazda öz əksini tapır.

Orijinala sadiqlik: Parafraz müəllifin nitqini təhrif etmir.

Mənbə mətnin həcminə uyğunluq: Mətnin parafrazı onun həcmi qədər və ya ondan qısa olur.

Öz sözlərinlə: Parafraz mətn istifadəçisinin öz sözləri, ton və üslubu ilə yazılır.

Mənbəyə istinad: Mətndə parafraz aparılarkən mənbələr qeyd edilir və ədəbiyyat siyahısında göstərilir.

**Könül Aydın Nəhmətova**
**Filologiya üzrə fəlsəfə doktoru**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu, şöbə müdiri**